**Aydın Mədətoğlu Qasımlı**
Filologiya üzrə fəlsəfə doktoru

# Kıbrısın dünəni, bu günü, sabahı

**(əvvəli ötən sayımızda)**

***Makariosun əsas məqsədi Kipri Türksüz bir yunan dövləti etmək idi. Kiprdə olan yunan xuntası isə Yunanıstana arxalanaraq Kipri Yunanıstana birləşdirməyə çalışırdı. Makariosun Yunanıstan hökumətindən Yunan əsgərlərini geri çəkməsini istəməsi Yunanıstanla Makariosun arasında ziddiyyət yaratdı. Bunun nəticəsi olaraq 15 iyul 1974-cü ildə yunan zabitləri EOKA-B terroristləri ilə birgə Makariosu devirərək yerinə Hikos Sampsonu gətirmişlər. Radio ilə Makariosun öldürüldüyünü elan etmələrinə baxmayaraq, Makarios qaçaraq İngilislərə sığınmış və İngilislər vasitəsilə Kiprdən uzaqlaşdırılmışdır.***

***"İnsan qəssabı" kimi ad çıxaran Hikos Sampsonun elan etdiyi "Kipr Helen Cümhuriyyəti" Kipr Cümhuriyyətinin Anayasasına zidd olduğu üçün "Qeyri-qanuni" sayılmışdır. Bu hadisələri 19 iyul 1974-cü ildə BMT Təhlükəsizlik Şurasında çıxış edən Makarios belə dəyərləndirmişdir:***

"Yunanlar Kipri işğal etmişlər. Adada çarpışmalar qanlı bir şəkildə davam etməkdədir. Böyük binalara yunan bayraqları asılmışdır. Küçələrdə tanklar dolaşmaqdadır. Bu işğal hərəkatı Kiprin müstəqilliyini və ərazi bütünlüyünü tamamilə aradan qaldırmışdır. Bu gün Türk toplumu da təhlükə içindədir".

Silahlı basqı və iqtisadi embarqoya məruz qalan Kipr Türkünün mövcudluğunu qorumaq yunanların Enosis planını pozmaq, yəni Kiprin Yunanıstana aid olduğu və Yunanıstana birləşdirilməsinin qarşısını almaq məqsədi ilə Türkiyə hökuməti "Qaranti Andlaşması"nın IV maddəsini əsas götürərək 20 iyul 1974-cü ildə Kiprə ordu yeritməyə məcbur oldu. Türklərin Kiprə ordu yeritməsi ilə Hikos Sampson iqtidardan uzaqlaşdırıldı, yunan xuntası devrildi, Kiprə sülh, sabitlik və sakitlik gəldi.

BMT Təhlükəsizlik Şurasının 20 iyul 1974-cü il 353 nömrəli qərarı ilə Kiprin qarantı olan Türkiyə, Yunanıstan və İngiltərə dövlətləri arasında Cenevrədə görüşlər başlandı. Aralarında böyük görüş ayrılıqları olmasına baxmayaraq, nəhayət 30 iyul 1974-cü ildə Türkiyənin tələblərinin böyük bir qismini tərəflər qəbul etdi və bu münasibətlə üç dövlət birgə protokol hazırladı. Bu müqavilə Kiprə yeni bir status verilməsi üçün mühüm bir addım oldu. Cenevrə toplantısında iştirak edən Türkiyə, Yunanıstan və İngiltərənin xarici işlər nazirləri birgə bəyənat verərək "Kipr Cümhuriyyətində rum və Türklərdən ibarət iki toplum olmaq üzrə iki avtonom idarənin var olduğunu" və Türk toplumunun sərhədlərini qeyd etdilər. Bu Kipr Türkləri üçün çox mühüm məsələ idi. Çünki gələcək bütün danışıqların təməlində bu məsələ dayanacaqdı.

Həhayət, Kirp Türk Sülh Hərəkatı nəticəsində 13 fevral 1975-ci ildə müstəqil Kipr Türk Federativ Dövləti (KTFD) rəsmən elan edildi. Lakin bu dövlət rəsmən tanınmadı və beynəlxalq aləmdə Kipri rum yönətimi təmsil etdi və etməkdədir.

Rum-yunan ikili çalışması nəhayət BMT-nin 13 may 1983-cü il A /37/ L (37253) nömrəli qərarı ilə Kipr Türk Federativ Dövləti ləğv edilmişdir. Bu qərar Türklərin səbr kasasını doldurduğundan Kipr Türklərini Federativ Məclisi 17 iyun 1983-cü il tarixli qərarına dayanaraq 1960-cı il Kipr Anayasasında qeyd olunan "Self-Determinasyon" ("Öz müqəddəratını təyin hüququ") haqqından istifadə edərək 15 noyabr 1983-cü ildə Kipr Türk Federativ Məclis üzvlərinin yekdil səsverməsi ilə Şimali Kipr Türk Cümhuriyyəti rəsmən elan olunur. Elə həmin gün də Türkiyə Respublikası tərəfindən rəsmən tanınır. İndiyədək Türkiyədən başqa heç bir dövlət tərəfindən Kipr rəsmən tanınmamışdır.

***Adanın hər iki tərəfini birləşdirmək məqsədi ilə bir çox planlar olmuş, fəqət rum-yunan tərəfinin günahı ucbatından bu birlik baş tutmamışdır.***

***İstər BMT baş katibi Perez dö Cuelların 1985-ci ildə hər iki tərəfə sunduğu "Anlaşma Mətni Planı", istərsə də BMT-nin o zamankı baş katibi Annanın tərəflərə təqdim etdiyi "Annan planı" Kipr Türkləri tərəfindən qəbul edildiyi halda Kipr rumları tərəfindən qəbul edilmədi. Bütün bunlara baxmayaraq Kiprin Rum*** hissəsini AB-yə qəbul etdilər.

Bütün bunlardan sonra Kiprin gələcəyi haqqında kəsin söz söyləmək çətindir. Çünki dünyada nə qədər ki, ikili standartlar hökm sürür, Yunanıstan EHOSİS planından əl çəkməyib, xristian dünyası Türkə tarixi düşmən gözü ilə baxır, dünya super dövlətlərin istəyi ilə idarə olunursa, nəinki Kipr Türkləri, bütövlükdə Türk dünyası böyük zorluqlarla qarşılaşacaq.

Əgər dünya doğrudan da sülh və ədalət istəyirsə, demokratiya istəyirsə, insan haqlarını ön plana çəkirsə, ikili standartlardan əl çəkməli, Türkiyəni Avropa Birliyinə qəbul etməli, Kiprlə bağlı BMT, AB, ABŞ və Rusiya öz sözünü deməli, Şimali Kipr Türk Cümhuriyyətini tanımalı, Kipr Türklərinə tətbiq etdikləri embarqoları götürməli, Kiprin hava yolları və limanları istifadəyə açılmalı, Kiprin Türk hissəsinə maliyyə yardımları edilməli, Kipr Türkləri ödüllənməli, bir sözlə, dünya Şimali Kipr Türk Cümhuriyyətinə qucağını açmalı, verdiyi sözə əməl etməlidir.

Kipr Türkləri və Türkiyə iyi niyyətlərini ortaya qoydu və bütün gərəkənləri yapdılar, indi söz AB, BMT və ABŞ-ındır.

Unutmamalıyıq ki, Kipr məsələsi Türk dünyası üçün bir şərəf məsələsi olduğu qədər də Türkiyə üçün həm də bir geopolitik məsələdir. Türkiyə öz varlığını qorumaq, öz təhlükəsizliyini təmin ektmək, iki yüz minlik Türkün taleyinə biganə qalmamaq üçün Kipr məsələsində planlı və uzağı görərək hərəkət etməli, özünü və bütövlükdə Türk dünyasını gələcək zərbələrdən qorumağa çalışmalıdır. Kipr Türkiyə və bütövlükdə Türk dünyası üçün "olum, ya ölüm" məsələsidir.

Unudulmamalıdır ki, Kipr geoloji baxımdan Anadoludan qopma bir torpaq parçasıdır, Yunanıstandan yox. İskəndərun körfəzindən Aralıq dənizinə doğru uzanan Toros ərazisinin dəniz içində bulunan bir bölümüdür. Deməli, orada yaşayan hər iki toplum - rum və Türk toplumu Anadolu vətəndaşıdır, Yunanıstan yox. Bu anlamda rumlar yetmiş milyonluq böyük əkseriyyət içində kiçicik bir zümrə mahiyyətindədir. Kipr adasında rum çoxluğundan bəhs edən Yunanıstanın əlindən bu kozuru da almaq gərəkdir.

***Unudulmamalıdır ki, Kipr adası Türkiyənin strateji təhlükəsizliyinin önəmli bir ünsürüdür. Kipr Türkiyənin İskəndərun körfəzi, İçel körfəzi və Antalya körfəzlərini tamamilə kontrol altında tutan strateji bir adadır. Kirpdə yerləşdirilən hərbi təyyarələr asanlıqla Türkiyənin istənilən bölgəsini bombarduman edib geri qayıda bilər.***

Ada həmçinin Suriya, Misir sahillərini, Suveyş kanalını, bir sözlə Şərqi Aralıq dənizinin bütün sahələrini kontrol altında tutan geopolitik bir duruma sahibdir. Kıbrıs Türklərinin "Annan planı"na "hə" deməsi artıq fərqli dönəm ortaya çıxarıb. Bütün dünya artıq Kipr Türkünün və Türkiyənin iyi niyyətinin şahidi oldu. Hiyyətlər aydın olanda şərtlər də dəyişməlidir. Artıq indiki anda dünya Türkləri dışlamamalı, qucağını onlara açmalıdır. Dünya, Türkləri təcrid siyasətindən əl çəkməlidir.

Türkiyə və bütün Türk Cümhuriyyətləri Kıbrıs Türkləri ilə həmrəylik nümayiş etdirməli, Türk Cümhuriyyətləri iqtidarları Kipr Türk iqtidarı ilə birgə fəaliyyət göstərməli, iç soyuqluqlara son qoymalıdır. Böyük mücadilə sahibi sayın Rauf Denkdaşın siyasi kursu müdafiə edilməlidir.

***Şimali Kipr Türk Respublikasına münasibətdə digər Türk dövlətlərinin başçıları Türkiyə Respublikasından nümunə götürməli, Kipr Türk Respublikasına yardımda bulunmalı və sonda Kipr Türk Respublikası digər Türk dövlətləri tərəfindən rəsmən tanınmalıdır.***

***Unudulmamalıdır ki, Türk düşmənləri qurduqları tora özləri düşüb. İndiki anda isti ürək, soyuq başla öz haqqımızı tələb etməli, planlı təbliğat fəaliyyətini gücləndirməli, bunlara paralel olaraq böyük və əsaslı diplomatik gedişlər etməliyik. Haqlı davamızı dünyaya anlatmalı və qəbul etdirməliyik. Əlimizdəki bu müəzzəm kozurdan maksimum istifadə etməliyik.***




***Əgər dünya doğrudan da sülh və ədalət istəyirsə, demokratiya istəyirsə, insan haqlarını ön plana çəkirsə, ikili standartlardan əl çəkməli, Türkiyəni Avropa Birliyinə qəbul etməli, Kiprlə bağlı BMT, AB, ABŞ və Rusiya öz sözünü deməli, Şimali Kipr Türk Cümhuriyyətini tanımalı, Kipr Türklərinə tətbiq etdikləri embarqoları götürməli, Kiprin hava yolları və limanları istifadəyə açılmalı, Kiprin Türk hissəsinə maliyyə yardımları edilməli, Kipr Türkləri ödüllənməli, bir sözlə, dünya Şimali Kipr Türk Cümhuriyyətinə qucağını açmalı, verdiyi sözə əməl etməlidir.***

***Kipr Türkləri və Türkiyə iyi niyyətlərini ortaya qoydu və bütün gərəkənləri yapdılar, indi söz AB, BMT və ABŞ-ındır.***